შეფასებისა და გამოცდების ეროვნული ცენტრი



# Mülki təhsil testi

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Tapşırıqların təlimatı ilə diqqətlə tanış olun, hər bir tapşırığın şərtini yaxşı düşünün və sonra cavab verin.

Testin maksimal xalı 60-dır.

Testə əməl etmək üçün sizə 5 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

## Təlimat

➢ **Seçimli cavablı tapşırıq (№1-13, 25.1-25.3)**

Hər suala ehtimal olunan dörd cavab verilir. Onlardan yalnız biri düzgündür. Cavablar vərəqində düzgün cavabın müvafiq xanasında **X** işarəsi qoyun. Başqa heç bir qeyd elektron proqramı tərəfindən qəbul edilmir. İşarə edilmiş cavabı düzəltmək istəsəniz, **X** işarəsi qoyulmuş xananı bütövlüklə rəngləyin və sonra cavabın yeni variantını işarə edin. Düzəldilmiş cavabın təkrarən seçilməsi qeyri-mümkündür. Hər tapşırığa 1 xal verilir.

**1. Gürcüstan konstitusiyasına əsasən prezidentin hansı səlahiyyəti *yoxdur*?**

ა) Məhkumları əfv etmək;

ბ) Hökumət başçılığı;

გ) Yerli idarəetmə orqanlarının seçkilərini təyin etmək;

დ) Orqanik qanunla müəyyən edilmiş qayda ilə vətəndaşlıq məsələlərini həll etmək.

**2. Kapitalist iqtisadiyyat hansı xüsusiyyətlərlə *səciyyələndirilmir?***

ა) Bazarda mal mövcud olan tələbl-çatdırılmaya görə istehsal olunur;

ბ) Sənaye mülkiyyətinin çox hissəsi özəl mülkiyyətdədir;

გ) Daha çox qazanmaq istəyi sahibkarlıq və əmək üçün motivasiyadır;

დ) Sənaye ehtiyatlarını dövlət mərkəzləşdirilmiş şəkildə paylayır.

**3. Münaqişə vəziyyətindəki davranışın hansı modeli yüksək assertivlik və aşağı partnoyrluq ilə xarakterizə olunur?**

ა) Əməkdaşlıq;

ბ) Alışmaq;

გ) Rəqabət;

დ) Kompromis.

**4. Hansı Avropa dövləti ərazi-inzibati təşkili ilə federasiya *__deyildir?__***

ა) Belçika;

ბ) İtaliya;

გ) Avstriya;

დ) Almaniya.

**5. Gürcüstan konstitusiyasına vətəndaşlıq haqqında olan fikirlərdən hansı *uyğun gəlmir*?**

ა) Gürcüstan vətəndaşlığı doğuş və ya naturalizasiya yolu ilə əldə edilir;

ბ) Gürcüstan vətəndaşının başqa dövlətə verilməsinə, beynəlxalq müqavilədə nəzərdə tutulmuş hallar istisna olmaqla, icazə verilmir;

გ) Gürcüstanda başqa dövlətin vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin siyasi fəaliyyətlərinin məhdudlaşdırılması yolverilməzdir;

დ) Gürcüstan vətəndaşının Gürcüstandan qovulması yolverilməzdir.

**6. Praktiki hallara və məqsədlərə yönəlmiş faydalılıq prinsipinə əsaslanan doktrinaya nə ad verilir?**

ა) İdealizm;

ბ) Praqmatizm;

გ) Teizm;

დ) Nihilizm.

**7.** **Diaqramda amerikalı aktivist və siyasətçi olan Devid Nolan tərəfindən yaradılmış siyasi baxışların çeşidi göstərilir. Sual işarəsinin yerinə nə yazılmalıdır?**




ა) Kommunist;

ბ) Monarxist;

გ) Sosialist;

დ) Libertarian.

**8.** **Hansı fikir parlament üzvünün azad mandat anlayışının məzmununa uyğundur?**

ა) Parlament üzvü hökumətə sual vermək səlahiyyətinə malikdir;

ბ) Parlament üzvünün səlahiyyətlərinə seçici tərəfindən vaxtından əvvəl xitam verilməsi yolverilməzdir;

გ) Parlament üzvü elmi və pedaqoji fəaliyyətlə məşğul ola bilər;

დ) Seçkidə iştirak etmək hüququ olan hər bir vətəndaş parlament üzvü seçilə bilər.

**9. Daxili partiya demokratiya prinsipi nəyı nəzərdə tutur?**

ა) Partiyalar arasında ümumi bir konsensusa çatmağı;

ბ) Partiyanın qərar qəbul etmə prosessində iyerarxik prinsipə riayət etməyı;

გ) Seçkiqabağı prosesdə partiyalar arasında bərabər başlanğıc mövqeyinin təmin edilməsini;

დ)Hər bir partiya üzvünün partiyanın qərar qəbulu prosesində iştirak dərəcəsi və üsullarını.

10. **Hər hansı bir mədəniyyət qrupunun üzvləri tərəfindən öz adətlərinin ümumbəşəri kontekstdə nəzərdən keçirilməsinə və onlara əsaslanaraq digər mədəniyyətləri mühakimə etməsinə nə ad verilir?**

ა) Relativizm;

ბ) Plüralizm;

გ) Etnosentrizm;

დ) Multikulturalizm.

**11. Hansı siyasi mütəfəkkirin əsəri sonradan Amerikanın qurucu atalarının təfəkkürünə təsir edən "hakimiyyət bölgüsü" nəzəriyyəsinin hərtərəfli hazırlanması ilə əlaqədardır?**

ა) Tomas Hobbsun ,,Levyatan”;

ბ) Nikkolo Makiavellinin ,,Hökmdar”;

გ) Şarl Lui De Monteskyönun ,,Qanunların ruhu”;

დ) Con Stüart Millin "Azadlıq haqqında".

## 12. Diaqram Gürcüstan vətəndaşlarının müxtəlif instutisiyalara etibarını göstərir:



**Hansı fikir diaqram göstəricilərinə _uyğun deyil?_**

ა) 2017-ci ildə 2008-ci il ilə müqayisədə institutsyalara inam artmayıb;

ბ) 2008-ci ildən 2017-ci ilədək intitusiyalar arasında ən çox güvən məhkəmə sisteminə qarşı azaldı;

გ) 2017-ci ildə parlamentə, məhkəmə sisteminə və qeyri hökümət təşkilatlarına etimad səviyyəsi demək olar ki bir-birinə bərabərləşdi;

დ) 2011-2017-ci illərdə dini institusiyaya inam azaldı, polisə inam isə 2015-2017-ci illərdə artdı.

**13. Tapşırıq, Gürcüstanda etnik azlıq tələbələri və məzunlarının peşə inkişafı mövzusunda 2017-ci il tədqiqat nəticələrini təqdim edir:**

- İş təsvirlərinin 74.3% -i mütləq tələb kimi iş təcrubəsini adlandırır, lakin 40.6% təcrubənin uzunluğunu dəqiqləşdirmir; 9,6% minimum 1 illik və 9%-isə minimum 2 illik iş təcrübəsi tələb edir.
- Elan edilmiş vakansiyaların 47,7% -i üçün bakalavr təhsili mütləq tələbdir; 4.3% magistr; 18,6% -i heç bir ixtisasa ehtiyac duymur.
- Respodentlərin 64,1% -i işə başlamaq üçün ön şərt kimi praktik bilikləri qeyd edir, 44% nəzəri bilikləri; 21.9% isə tanışı hansıki vakansiyaya götürülməsini təmin edir.

**Göstəricilərə əsasən çixardılmış nəticələrdən hansı düzgündür?**

ა) İş ilə təmin edilmə bazarı təhsil səviyyəsi aşağı olan şəxslərın iş ilə təmin edilməsinə yönəlmişdir və bu yüksək maaş təklif etməyin əsasıdır;

ბ) İş axtaranlar praktiki biliyi vacib hesab edirlər, lakin, dərin nəzəri biliklər işəgötürən üçün daha dəyərlidir;

გ) İş təcrübəsi işə girmək üçün şansınızı artırsa da, əsas faktor iş ilə təmin edən tanışın olmasıdır;

დ) İşə girmək heç bir ixtisas olmadan da mümkündür, lakin işəgötürənlərin əksəriyyəti üçün iş təcrübəsi əsas şərtdir.

## Təlimat

**Ardıcıllığın müəyyən edilməsi (№14)**

Tapşırıqda verilmiş siyahını göstərilən prinsip üzrə yerləşdirin. Cavabları cavablar vərəqində verilmiş xanalara yazın. Nəzərə alın ki, xanada yalnız seçilmiş cavabın müvafiq rəqəmi yazılır. Xalların maksimal miqdarı tapşırıq boyunca göstərilmişdir.

**14.** **(1) Sxemdə verilən Gürcüstanın hüquqi aktlarını ierarxik qayda ilə düzün:**

1. Orqanik Qanun
2. Prezidentin fərmanı
3. Konstitusiya sazişi
4. Konstitusiya
5. Gürcüstanın qoşulduğu beynəlxalq hüquqi akt

| | | | | |
|---|---|---|---|---|
| | **3*** | | | |

* Cədvəldə düzgün cavab göstərilib

## Təlimat

**Uyğunluğun müəyyən edilməsi (№15-17)**

Tapşırıqda iki sütunda müxtəlif tipli siyahı verilir. Bu iki sütunda təqdim olunan informasiya arasında uyğunluğu müəyyən edin. Cavabları cavablar vərəqində verilmiş cədvələ yazın. Xalların maksimal miqdarı tapşırıq boyunca göstərilmişdir.

**15.** (1) Xəritədə fərqli rənglərdə müxtəlif idarəetmə forması olan dörd ölkə qeyd edilib. II sütundakı xəritə leqendasının rənglərini I sütundakı ölkələrin idarəetmə formalarına uyğunlaşdırın:



| I. İdarəetmə forması | II. Xəritə leqendasının rəngi |
|---|---|
| ა. Prezident Respublikası | 1. |
| ბ. Parlament Respublikası | 2. |
| გ. Konstitusiya Monarxiyası | 3. |
| დ. Mütləq monarxiya | 4. |

**16.** **(2) II sütunda təqdim olunan mühüm tarixi şəxsiyyətləri I sütunda göstərilən siyasi nəzəriyyələrə uyğunlaşdırın:**

| I. Siyasi nəzəriyyələr | II. Mühüm şəxsiyətlər |
|---|---|
| ა. Kommunizm | 1. Ceyms Medison |
| ბ. Pasifizm | 2. Adam Smit |
| გ. Kapitalizm | 3. Edmund Bark |
| დ. Federalizm | 4. Mao Tszedun |
| ე. Konservatizm | 5. Mahatma Qandi |

**17.** (1) **II sütundakı emblemləri I sütundakı BMT Baş Assambleyasının proqramları və fondlarına uyğunlaşdırın:**

| I. Proqramlar və fondlar | II. Emblemlər | |
|---|---|---|
| ა. BMT Uşaq Fondu<br>ბ. Dünya Qida Proqramı<br>გ. BMT-nin Ətraf Mühit Qoruma Proqramı<br>დ. BMT-nin Qadınlar üçün İnkişaf Fondu<br>ე. BMT-nin Qaçqınlar üzrə Ali komissarlığı | 1.<br>2.<br>3. | 4.<br>5. |

## Təlimat

### Səhvin düzəldilməsi (№18)

Tapşırıqda verilmiş mətndə faktik səhvlərə yol verilmişdir (tarix, termin, ad və s.). Onları tapıb düzəldin. Tapılmış səhvi və onun düzəldilmiş variantını cavablar vərəqində verilmiş cədvələ köçürün (səhvi I sütuna, düzəldilmiş variantı - II sütuna). Nəzərə alın ki, hər bir tapılmış səhvə onun düzəldilmiş variantı ilə birlikdə 1 xal verilir. Xalların maksimal miqdarı tapşırıqlar boyunca göstərilmişdir.

**18.** **(7) Mətni diqqətlə oxuyun, səhvləri tapın və düzəldin:**

## Sovet hakimiyyətinin zorakı sistemi

Böyük Oktyabr İnqilabı olaraq bilinən 1918-ci ilin oktyabrında Rusiyada inkişaf edən siyasi hadisədən sonra rus hakim partiyası qısa müddətdə müxtəlif sosial qrupları sıxışdırmağa başladı. Məsələn, böyük iş adamları, müxalif siyasətçilər və menşevik partiyasına qarşı çıxanların hamısı xalqın düşməni elan edildi.

Kommunist ideyaları həyata keçirmək üçün böyük iqtisadi islahatlar aparmaq vacib oldu. Varlı kəndxudaların mülklünun konfiskasiyası, planlı iqtisadiyyata keçid və sürətli sənayeləşməni nəzərdə tutan bu islahatlar kütləvi aclıqla nəticələndi. Xüsusilə bu qıtlıq Ukraynaya təsir etdi və müxtəlif məlumatlara görə bir neçə milyon Ukraynalı aclıqdan öldü. Bəzi tarixçilər bu hadisəni sadəcə qida siyasətinın uğursuzluğu deyil, həmçinin Ukraynalı xalqın kütləvi qətl aktı hesab edirlər. Bu konkret tarixi hadisə homofobiya adı ilə tanınır.

Sovet hakimiyyəti müxtəlif xalqların kütləvi şəkildə sürgün edilməsindən də çəkinmirdi. Məsələn, Mesxettidən yerli müsəlman əhalisi Mərkəzi Asiyaya deportasiya edirdi. Bu kimi bir şey Sovet İttifaqından əvvəl Rusiya İmperiyasında da qəbul olunan praktika idi. Məsələn, XIX əsrin sonlarında Rusiya çərkəzləri kütləvi şəkildə vətənlərindən sürgün etdi. Etiraf olunub ki, onların sıxışdırılması etnik zəmində baş verib. Bu sürgündə çox sayda çərkəz həyatını itirdi. Faciənin miqyasına əsaslanaraq Gürcüstan Parlamenti sözü gedən hadisəni 2011-ci ildə rəsmi olaraq holokost kimi qəbul etdi.

*Mətnin ikinci səhifəsinə keçid*

Sovet İttifaqında sürgündən əlavə, indulgensiyaların digər formalarıda mövcud idi: edamlarlar və həbslər. Həbslər o qədər miqyaslı idi ki, islah-əmək düşərgələri və koloniyaları üçün Getto adı ilə tanınan baş qərargahın yaradılması lazım gəldi. Bu cəza sistemi Sovet İttifaqı boyu geniş yayılmışdı və bu düşərgələrin ağır şəraitində çox sayda insan həyatını itirmişdı. Onların arasında bir çox görkəmli gürcü xadimləri var idi.

Zorakı hərəkətlərdən məlumatların yayılmasını məhdudlaşdırmaq üçün də istifadə olunurdu. Hər hansı bir publikasiya və ya əsər dərc etməzdən əvvəl xüsusi bir müayinədən keçməli idi və əgər komissiya onu uyğunsuz hesab etsə idi, dərc olunmurdu. Təəssüf ki, dövlət tərəfindən belə bir arbitraj Sovet dövründə nəşr olunması qadağan edilmiş bir çox bədii və ya elmi əsərə təsir etdi.

*Mətnin ilk səhifəsinə qayıdmaq*

## Təlimat

**Səhvin düzəldilməsi (№19)**

Tapşırıqda bir mövzu ilə əlaqədar iki mətn verilmişdir. Hər iki mətndə faktik səhvlər vardır. Sizin vəzifəniz mətnləri təhlil etmək, səhvləri aşkar etmək və əvvəlcədən verilmiş sxemlə müəyyən edilmiş meyarlarla mətnləri qiymətləndirməkdir. Qiyməti cavablar vərəqindəki müvafiq yerə yazın. Xalların maksimal miqdarı tapşırıqlar boyunca göstərilmişdir.

**19.** **(6) Tapşırıqda "Demokratiya və vətəndaş iştirakı" mövzusunda iki mətn verilib. Mətnlərdə faktiki səhvlər ola bilər. Mətnlərlə tanış olun, məzmununu təhlil edin və təklif olunan meyarlara uyğun olaraq qiymətləndirin.**

## I mətn:

Demokratik dövlətdə seçkilər yolu ilə dövri olaraq hakimiyyət dəyişməsi bir sıra səbəblərdən qaynaqlanır. Bu səbəblərdən biri ictimai fikirin dəyişməsidir. Hakimiyyətdə olan eyni insanların uzun müddət gücə sahib olmamaları da vacibdir, çünki belə halda cəmiyyət tərəfindən onları idarə etmək çətin olacaq.

Vətəndaşların seçkilərldə şüurlu seçim edə bilməri üçün, azad və demokratik bir dövlətdə insanın məlumat azadlığı hüququna zamanət verilibdir. Hər bir vətəndaşın nəinki passiv, yəni məlumat axtarmaq, əldə etmək və almaq, eyni zamanda aktiv hüququda var. Gürcüstanda bu hüququn qorunmasının ən əsas təminatçısı konstitusiyadır. Bu hüquqdan istifadə etmək vətəndaşın siyasətdə fəal iştirakına imkan yaradır.

Cəmiyyətdəki problem və məsələlərin həllində vətəndaşların fəal qoşulmasına mülkü iştirakı deyilir. İştirakı müxtəlif mərhələlərə bölürlər, bunların arasındadır fikir bölüşməsi, hansıki yalnız məlumatı almağı deyil, həmçinin onu emal etməyı və başqaları ilə paylaşmağı nəzərdə tutur. Vətəndaş iştirakının ən yüksək səviyyəsi ,,xarici təşəbbüs” adlandırdıqlarıdır və bu, vətəndaşların xarici müdaxilə olmadan özünü təşkil etmə bacarığını göstərir.

*II Mətnə keçid*

*Qiymətləndirmə sxeminə keçmək*

## II Mətn:

Demokratik bir dövlətdə vətəndaşlar aktiv siyasi fəaliyyətləri ilə özlərinin qanuni çərçivələrini tərtib edirlər. Hakimiyyətdə hansı siyasi gücün olacağını onların özləri müəyyənləşdirirlər. Bunun üçün seçkilər bütün demokratik ölkələrdə dövri şəkildə keçirilir və bu fərqli baxışları olan siyasi qrup üçün birbirlərini əvəz edərək öz baxışlarını həyata keçirməyə cəhd etmə imkanı yaradır.

Ölkə demokratiyası  məlumat azadlığının dərəcəsi ilə də müəyyən edilir. Bu baxımdan, Gürcüstan konstitusiyası çox demokratikdir, çünki bu sənədə görə hər kəsin öz məlumatlarını sərbəst yaymaq hüququ var və bu onun passiv azadlığınının göstəricisidir. Bütün vətəndaşlar bu hüquqdan istifadə edirlər, bu, siyasi və ictimai həyatda fəal iştirak üçün vacib elementdir.

Mülki iştirak sosial mühitdə bir çox problem və ya məsələnı həll etmək üçün vətəndaşların fəal şəkildə qoşulmalarını nəzərdə tutur. İştirakın müxtəlif dərəcələrini ayırd edə bilərik: Məlumatlandırma - bir və ya bir neçə məsələ haqqında məlumat almaq; Konsultasiya; ,,Daxili təşəbbüs" - təzyiq olmadan vacib qərarları qəbul etmək və problemi öz gücləri ilə müəyyənləşdirmək- həll etmək.

*I mətnə qayıdmaq*

*Qiymətləndirmə sxeminə keçmək*

**Qiymətləndirmə sxemi ilə diqqətlə tanış olun və hər iki mətni verilmiş meyarlar üzrə qiymətləndirin. Müvafiq xalı qiymətləndirmə sxeminin hər bir meyarı üçün ayrı-ayrılıqda yazın:**

| | I. Meyarlar | II. Maksimal xal | III. Xalların verilmə prinsipi |
|---|---|---|---|
| A. | Seçkilərin dövrilik səbəbləri | 3 | Hər bir düzgün adlandırılan səbəb - 1 xal |
| B. | Məlumat azadlığının passiv və aktiv aspektləri | 2 | Hər bir düzgün adlandırılan və izah edilən aspekt - 1 xal |
| C. | Mülki iştirak mərhələsi | 5 | Hər bir düzgün adlandırılan və izah edilən mərhələ - 1 xal |

Sizin verdiyiniz xalları cavablar vərəqindəki cədvələ yazın:

| | | A | B | C |
|---|---|---|---|---|
| 19.1 | I mətnin qiymətləndirilməsi | | | |
| 19.2 | II mətnin qiymətləndirilməsi | | | |

*I Mətnə qayıdmaq*                                    *II Mətnə qayıdmaq*

## Təlimat

**Açıq sonluqlu tapşırıq (№20, 21, 22, 23, 24, 25.4-25.7)**

Tapşırıqda ehtimal edilən cavablar olmayan sual verilmişdir. Tapşırığın şərtini və sualı diqqətlə oxuyun. Cavab suala adekvat və konkret olmalıdır. Cavabı cavablar vərəqindəki müvafiq yerə yazın. Xalların maksimal miqdarı hər tapşırıq boyunca göstərilmişdir.

**20.** **(5) Sxem insan hüquqlarının inkişaf mərhələlərini və tarixini natamam əks etdirir. Sxemın boş hücrələrini doldurun:**

| | Siyasi katalizator | Tərif | Nümunələr | Beynəlxalq sənədlər |
|---|---|---|---|---|
| Birinci nəsil | Fransa inqilabı | Mülki<br>Siyasi | 20.1 | 1966-ci ilin Mülki və Siyasi hüquqları haqqında Beynəlxalq Pakt |
| İkinci nəsil | İndustralizasiya<br>Kommunizm dalğası | 20.2 | Təhsil hüququ<br>Əmək hüququ | 20.3<br>1966-ci ilin … |
| Üçüncü nəsil | Qloballaşma | 20.4 | 20.5 | 1972-ci ilin insan mühiti haqqında Stokholm Bəyannaməsi<br><br>1992-ci ilin Ətraf Mühit və İnkişaf Rio Bəyannaməsi |

**21.** (3) Ümumi Daxili Məhsulun dünya xəritəsi 2014-cü ilin göstərcilərinə görə verilibdir. Xəritəni təhlil edin və suallara cavab verin:



**21.1** Ümumi daxili məhsul nəyə deyilir?

**21.2** Xəritədə leqendanın qara rəngi nəyı göstərir?

**21.3** Xəritə təhlili əsasında yüksək Ümumi daxili məhsulun, yüksək keyfiyyətli demokratiyanın qarantı olduğu qənaətinə gələ bilərikmi? Cavabı əsaslandırın.

**22. (5) Tapşırıqda məktəb layihəsinin məqsədinin, vəzifələrinin və həyata keçirilmə yollarının natamam variantı verilmişdir. Məktəb layihəsinin başa çatmış forma alması üçün tapşırıqlara aşağıdakı ardıcıllıqla əməl edin:**

**I.** Cədvəldə verilmiş həyata keçirmə yollarının siyahısından irəli gələrək I məsələni müəyyən edin və yazın; *(Tapşırıq 22.2)*

**II.** Cədvəldə verilmiş II məsələnin həllinə komək edən, həyata keçirilmənin üç müxtəlif yolunu yazın; *(Tapşırıq 22.3)*

**III.** Layihənın məqsədini müəyyən edin və yazın, hansınaki nail olmaq layihənin hər iki məsələsinə və onların həyata keçirilmə yollarından irəli gələrək mümkündür. *(Tapşırıq 22.1)*

| | |
|---|---|
| 22.1 | **<u>Layihənin məqsədi:</u>** *(Layıhənin məqsədini yazın, hansınaki nail olmaq verilən məsələlərdən və həyata keçirilmə yollarından irəli gələrək mümkündür.)* |
| 22.2 | **<u>Layihənin I məsələsi:</u>** *(Birinci məsələnin həyata keçirilmə yollarından irəli gələrək konkret məsələni müəyyən edin və yazın.)*<br><br>**<u>Layihənin II məsələsi:</u>** ***Tələbələrdə mədəni müxtəlifliyə dair müsbət əhval-ruhiyyəni formalaşdırmaq.*** |
| 22.3 | **<u>I məsələnin həyata keçirilmə yolları:</u>**<br><br>1. Diskriminasiyanın müxtəlif formaları haqqında mühazirə.<br>2. Xalq Müdafiəçisı ilə görüş.<br>3. Sinif plakatları: "Dünya tarixində diskriminasiya nümunələri".<br><br>**<u>II məsələnin həyata keçirilmə yolları:</u>** *(Verilmiş məsələnin həyata keçirilməsinin üç müxtəlif yolunu yazın.)* |

**23.** (3) illüstrasiya ilə tanış olun və suallara cavab verin:




Alman dilindəki yazı: "O, müharibədə günahkardır!"

**23.1** Verilən illüstrasiyanın məzmunu nədir və təqsirləndirilən hansı etnik qrupu təmsil edir?

**23.2** Bu cür illüstrasiyaların kütləvi yayılmasına nə ad verilir və hansı nəticələrə nail olmağı hədəfləyir??

**23.3** Hansı termin bu illüstrasiyada göstərilən irqi diskriminasiya formasını ifadə edir və bu diskriminasiyanın tarixi nəticələrini müzakirə edin.

**24.** **(5) Mətnlə tanış olun və aşağıda verilmiş göstərişlərə müvafiq olaraq tapşırığa əməl edin:**

"Bu idarəetmənin bir növüdür, bu zaman həm dövlət işini, həmdəki cəmiyyət işini hər yerdə və hər hissədə idarə edən hökumətdir. Bu vəziyyətdə hökumət, hər işi başladan və bitirəndir, hər işin yaradıcısı - hamının himayədarıdır, hər şey ondan gəlir və hər şey ona bağlıdır. İdarə üçün onun öz seçdiyi, təyin etdiyi, azad edə biləcəyi və yalnız onun qarşısında məsuliyyət daşıyan [...] xidmətçiləri var.

ikinci növ idarəetmə isə budur ki, hökumətin əlində təkcə bütün dövlət üçün lazımlı işlərdir, digər işləri cəmiyyət öz öhdəliyinə götürübdur. Beləliklə, hər bölgənin yerli işləri toxunulmadan özlərinə havalə olunubdur. Bölgələrə bölünən, cəmiyyətə lazımlı bu işlər yerli sakinlər tərəfindən seçilən şəxslərin köməyi ilə idarə olunur və bu şəxslər elə həmin cəmiyyətin qarşısında cavabdehlik daşıyır".

**"Həyat və Qanun", İlia Çavçavadze, 1884 il**

**24.1 Mətnın əsasında bir diskussiya mövzusu müəyyənləşdirin və adlandırın. Sizin seçdiyiniz diskussiya mövzusunun verilmiş mətn ilə uyğunlaşdırılması və aktuallığı haqqında müzakirə edin.**

**24.2 A. Diskussiya zamanı orataya çıxan mövqeyi müdafiə etmək üçün iki dəlil gətirin.**

**B. Diskussiya zamanı ortaya çıxan mövqeyi rədd etmək üçün iki dəlil gətirin.**

(Hər bir dəlil tam müstəqil fikir daşıyıcısı olmalıdır )

**25.** **(8) Verilmiş mənbələri təhlil edin və suallara cavab verin:**

**Mənbə N1**

"Hər yerdə qadınlar bu acınacaqlı vəziyyətdədirlər, çünki onların günahsızlığını, saflığını - nəzakətlə cahələt dediklərini- qorumaq üçün onlardan həqiqətləri gizlədirlər; Onlar da bacarıqlarını gücləndirmədən əvvəl süni xarakterə uyğunlaşmağa məcbur olurlar. Uşaqlıqdan onlara gözəlliklə güc əldə edə biləcəklərini öyrədirlər və onların ağılları da bədənlərinə uyğunlaşır; Və qızıllı qəfəsdə həbs olunmuş yalnız bu həbsxananı gözəlləşdirməyə can atırlar. Kişilərin diqqəti ağıllarını formalaşdıran fərqli fəaliyyətlərə və istəklərə yönəldilmişdir. Qadınların əsas işi bir şeyin ətrafında dolanır və onlardan ən əhəmiyyətsiz olanı haqqında daim düşünürlər. Buna görə də onların düşüncələrı nadir hallarda halhazırki maraqlarından kənara çıxır. Amma əgər onların düşüncələri bir tərəfdən kişilərin təkəbbürü və şəhvətpərstliyi və ikinci tərəfdən isə öz məhdud istəkləri ucbatından yaranan köləlikdən nə vaxtsa qurtulsa, bəlkə o zaman onların zəifliyindən danışmayacağıq."

**"Qadın hüquqlarını qorumaq", Meri Uolstonkraft, 1759-1797**

*Mənbələrə keçid:* 2 3 4

*Tapşırıqlara keçid:* 25.1 25.2 25.3 25.4-25.7

**Mənbə N2**

"Qız və oğlan birlikdə oynayanda onların aralarında heç bir zehni fərq görünmür. Böyüyəndə isə onların ağıllarını və istedadlarını birbirlərindən tamami ilə fərqli işlərə yönləndirirlər, bu halda, əlbətdəki onların təfəkkürləri də fərqli- fərqli istiqamətlərdə inkişaf edir. Və əgər əməyın spesializasiyasının belə bir təsiri varsa, o zaman əsrlər boyu mənəvi həyatdan uzaqlaşdırılmış, bəşəriyyətın yarısı olan qadın cinsinin kişi cinsinə müqayisədə əqli baxımdan geridə qalmış olması heçdə təəcübləndirici hal deyil. Kişi cinsi bəşəriyyət həyatında yeganə, eyni zamanda birtərəfli hökmdardır. Biz məhz buna görə mübarizə aparırıq ki, cinslərın intelekti arasında mövcud olan süni fərqlilik aradan qaldırılsın. "

**"Gürcü feminizminin naməlum hekayələri", Kato Mikeladze, 6 May 1917 il**

*Mənbələrə keçid:* *1* *3* *4*

*Tapşırıqlara keçid:* *25.1* *25.2* *25.3* *25.4-25.7*

**Mənbə N3**

"Qadın cinsi, bəşəriyyətin ən yaxşı nümayəndələrinin başçılığıyla, fəziləti və çalışqanlığı ilə ali təhsil və təhsil almaq hüququnu artıq təsdiq etmişdir və indi bu hüquqa yalnız körlar və gözləri bağlanmışlar qarşı gəlirlər, irad bildirirlər. Qadın cinsi həmçinin bəzi sahələrdə dövlət qulluğunda və ya ictimai işlərdə haqq-hüquq əldə etdi. Burada yenədə çox iş görülməli olsa da, bu ilkin addım əhəmiyyətsiz deyil.

Bəşəriyyətin yarısı olan qadın cinsinə indiyə qədər dayəlikdən və mətbəxdən kənar heç bir işdə iştirak etməyə macal verməyən, bir dilim çorək tapmaq yoluna imkan yaratmayan bu ədalətsizlik bir dəfə ayaq açmış hərəkətə uzun müddət dözə bilməyəcək."

**"Qadın işi", İlia Çavçavadze, 1888 il**

*Mənbələrə keçid:* 1 2 4

*Tapşırıqlara keçid:* 25.1 25.2 25.3 25.4-25.7

**Mənbə N4**

- Respondentlərin 64% hazırda Gürcüstanda gender bərabərliyinin olmadığını düşünür, gənclərin 68% - də eynisini düşünür;
- Respondentlərin 55% üçün 150 üzvdən ibarət parlamentdə 17 qadın parlament üzvü çox azdır;
- Respondentlərin 70% hesab edir ki, Gürcüstan parlamentində qadınların sayı ən azı 30% olmalıdır;
- Respondentlərin 68% parlament tərəfindən məcburi gender kvotasının tətbiq olunmasının tərəfdarı olduqlarını söylədi;
- Respondentlərin yarısı qadın parlament üzvlərinin sayının artmasının ölkənin inkişafına müsbət təsir edəcəyini düşünür.

**"Gürcüstanda qadınların siyasi iştirakı", Milli Demokratiya İnstitutu, 2014 il**

*Mənbələrə keçid:* 1 2 3 *Tapşırıqlara keçid:* 25.1 25.2 25.3 25.4-25.7

**25.1 N4 Mənbəyə əsasən:**

ა) Gürcüstan əhalisinin əksəriyyəti, gənclərin əksəriyyətinin əks fikirdə olmasına baxmayaraq, ölkədə gender bərabərliyinin olmadığını düşünür;

ბ) Qadın siyasətçilər siyasətə müsbət təsir edir, buna görə onların parlamentdəki sayı hər il xeyli artır;

გ) Gender kvotaları respondentlərin əksəriyyəti üçün məqbuldur, lakin onların fikirincə parlamentdə qadın siyasətçilərın sayı ümumi miqdarın yalnız beşdə birini təmsil etməli idilər;

დ) Cəmiyyətdə qadın siyasətçilərin aktivləşməsinin müsbət bir hadisə olacağına dair bir hiss var və kvota sistemi bunun üçün yaxşı bir vasitədir.

*Mənbələrə keçid:* 1 2 3 4

*Tapşırıqlara keçid:* 25.2 25.3 25.4-25.7

## 25.2 Kato Mikeladzenin fikirinə görə:

ა) Kişi və qadın arasındakı təbii fərqə görə, onların sosial statuslarıda də fərqlidir;

ბ) Yetkin qadınlar və kişilər arasında olan intelektual fərq mədəniyyətdə mövcud olan yetişdirmə ilə bağlı seksist yanaşmalardan irəli gəlir;

გ) Qadınlar mahiyyətcə intuitiv düşünürlər və bu kişilərin rasional düşüncə tərzindən fərqlənir;

დ) Kişilər mənəvi həyatdan qopmuşdular və bu onların hisslərinin kobudlaşmasına səbəb oldu.

*Mənbələrə keçid:* 1 2 3 4

*Tapşırıqlara keçid:* 25.1 25.3 25.4-25.7

**25.3 İlia Çavçavadze hesab edir ki:**

ა) Qadınların siyasi fəallığı yenə qaçılmaz olaraq artacaq;

ბ) Qadınlar əsasən ev işlərinə meyllidirlər;

გ) Qadınların siyasi fəaliyyətlərinə icazə verildikdən sonra oxumaq-təhsil onlar üçün əlçatılan olacaq;

დ) Dünya tendensiyası dünya kontekstini nəzərə alır və Gürcüstan öz inkişaf yolunu seçməlidir.

*Mənbələrə keçid:* 1 2 3 4

*Tapşırıqlara keçid:* 25.1 25.2 25.4 -25.7

25.4 Meri Uolstonkraft "qızıllı qəfəs" metaforası ilə nəyı nəzərdə tuturdu?

25.5 Meri Uolstonkraftın və Kato Mikeladzenin fikirlərinin birbirlərinə nə münasibətdə olduğunu yazılı olaraq müzakirə edin.

25.6 Mənbə N3-ə görə XIX əsrdə qadınlar hansı problemlərlə üzləşirdilər və mənbə N4-ə görə müasir Gürcüstanda bu problemlərın qavrayışı dəyişdi ya yox?

25.7 Mənbə N4-ə görə qadınların siyasi iştirakının artırılması üsulununun adını çəkin və onu izah edin. Bu metodun effektivliyini arqumentlərlə müzakirə edin.

*Mənbələrə keçid:* 1 2 3 4

*Tapşırıqlara keçid:* 25.1 25.2 25.3